Bakı Mühəndislik Universiteti Elmi Şurasının
"10.03.2026"-cı il tarixli, " 02/2026 " nömrəli qərarı ilə təsdiq edilmişdir
Rektor Y. Piriyev

# BAKI MÜHƏNDİSLİK UNİVERSİTETİ
# KEYFİYYƏT TƏMİNATI KOMİSSİYASININ ƏSASNAMƏSİ

## 1. ÜMUMİ MÜDDƏALAR

**1.1.** Bakı Mühəndislik Universitetində (bundan sonra – universitet) Keyfiyyət Təminatı Komissiyası (bundan sonra – komissiya) universitet rektorunun əmri ilə yaradılan daimi, kollegial, məşvərətçi və tövsiyəedici orqandır.

**1.2.** Komissiya öz fəaliyyətində Azərbaycan Respublikasının qanunvericiliyini, təhsil sahəsində qüvvədə olan normativ-hüquqi aktları, universitetin Nizamnaməsini, Strateji İnkişaf Planını, Strategiya və Keyfiyyət Təminatı Şöbəsinin Əsasnaməsini, daxili keyfiyyət təminatı ilə bağlı normativ sənədləri və bu Əsasnaməni rəhbər tutur.

**1.3.** Komissiya birbaşa universitetin rektoruna tabedir və fəaliyyətinin nəticələri barədə Elmi Şuraya hesabat təqdim edir.

**1.4.** Komissiya icraedici səlahiyyətlərə malik deyildir, struktur bölmələrin operativ fəaliyyətinə birbaşa müdaxilə etmir, nəzarət funksiyası daşımır, yalnız qiymətləndirmə, təhlil və tövsiyəvermə funksiyalarını həyata keçirir.

**1.5.** Komissiya universitetdə mövcud olan Strategiya və Keyfiyyət Təminatı Şöbəsinin (bundan sonra – SKT şöbəsi) fəaliyyətini əvəz etmir, əksinə, onun analitik, metodiki və institusional fəaliyyətini tamamlayan və gücləndirən mexanizm kimi çıxış edir.

## 2. KOMİSSİYANIN MƏQSƏDİ VƏ FƏALİYYƏT PRİNSİPLƏRİ

**2.1.** Komissiyanın əsas məqsədi universitetdə daxili keyfiyyət təminatı sisteminin fəaliyyətinin obyektiv qiymətləndirilməsinə, strateji hədəflərlə uyğunluğunun təhlilinə, institusional risklərin və inkişaf ehtiyaclarının müəyyən edilməsinə, habelə davamlı təkmilləşməyə yönəlmiş tövsiyələrin formalaşdırılmasına töhfə verməkdir.

**2.2.** Komissiya fəaliyyətində aşağıdakı prinsipləri rəhbər tutur:

- obyektivlik və qərəzsizlik;

- kollegiallıq və elmi əsaslı yanaşma;
- şəffaflıq və hesabatlılıq;
- davamlı inkişaf və təkmilləşmə;
- akademik və inzibati bölmələrin səlahiyyətlərinə hörmət;
- milli və beynəlxalq keyfiyyət təminatı standartlarına uyğunluq.

## 3. KOMİSSİYANIN FUNKSİYALARI

Komissiya aşağıdakı funksiyaları həyata keçirir:

3.1. Universitetdə daxili keyfiyyət təminatı sisteminin ümumi vəziyyətini, effektivliyini və davamlı inkişaf potensialını institusional səviyyədə qiymətləndirmək;

3.2. SKT şöbəsi tərəfindən hazırlanmış monitorinq nəticələrini, analitik arayışları, daxili və xarici qiymətləndirmə hesabatlarını müzakirə etmək, onlara dair rəy və tövsiyələr formalaşdırmaq;

3.3. Təhsil proqramları, tədris prosesi, tədqiqat fəaliyyəti, idarəetmə və inzibati xidmətlər üzrə keyfiyyət risklərini və təkmilləşmə sahələrini müəyyənləşdirmək;

3.4. Daxili və xarici keyfiyyət təminatı, akkreditasiya və institusional qiymətləndirmə nəticələrinə əsasən universitet rəhbərliyinə strateji və inkişafyönlü tövsiyələr təqdim etmək;

3.5. Keyfiyyət təminatı sahəsində normativ sənədlərin, prosedur və mexanizmlərin təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək;

3.6. Milli və beynəlxalq keyfiyyət təminatı, akkreditasiya və institusional qiymətləndirmə üzrə qabaqcıl təcrübələrin (o cümlədən ESG, TKTA və s.) tətbiqi imkanlarını qiymətləndirmək və təşviq etmək;

3.7. Struktur bölmələrdə aparılan keyfiyyət təminatı fəaliyyətlərinin nəticələrinin ümumiləşdirilməsinə metodiki və analitik dəstək göstərmək;

3.8. SKT şöbəsinin hazırladığı illik daxili keyfiyyət təminatı və institusional qiymətləndirmə hesabatlarına dair rəy vermək.

## 4. STRATEGİYA VƏ KEYFİYYƏT TƏMİNATI ŞÖBƏSİ İLƏ QARŞILIQLI FƏALİYYƏT

4.1. SKT şöbəsi universitetdə keyfiyyət təminatı sahəsində icraedici, koordinasiyaedici, metodiki və monitorinq funksiyalarını həyata keçirən əsas struktur vahiddir.

4.2. Komissiya öz fəaliyyətini əsasən SKT şöbəsi tərəfindən təqdim edilən rəsmi hesabatlar, analitik materiallar, statistik məlumatlar və qiymətləndirmə nəticələri əsasında qurur.

4.3. Komissiya SKT şöbəsinin fəaliyyətinə müdaxilə etmir, tapşırıq vermir və icra tələb etmir; SKT şöbəsi isə komissiyanın tövsiyələrini fəaliyyətində nəzərə alır.

4.4. Komissiya SKT şöbəsi fəaliyyətinə strateji baxış bucağından rəy vermək, risk və inkişaf imkanlarını göstərmək, institusional səviyyədə koordinasiyanı gücləndirmək məqsədi daşıyır.

4.5. SKT şöbəsi tövsiyələrinin icrası ilə bağlı görülmüş işlər barədə dövri olaraq komissiyaya məlumat təqdim edir.

## 5. KOMİSSİYANIN TƏRKİBİ VƏ FORMALAŞDIRILMASI

5.1. Komissiya 25 nəfərdən ibarət tərkibdə formalaşdırılır.

5.2. Komissiyanın tərkibinə universitetin əsas akademik və inzibati struktur bölmələrini təmsil edən rəhbər şəxslər və zəruri hallarda keyfiyyət təminatı sahəsində təcrübəsi olan üzvlər daxil edilə bilər.

5.3. Komissiyanın sədri və üzvləri universitet rektorunun əmri ilə təsdiq olunur.

## 6. KOMİSSİYANIN SƏDRİ

6.1. Komissiyanın sədri Komissiyanın fəaliyyətinə ümumi rəhbərliyi həyata keçirir.

6.2. Komissiyanın sədri:

- İclaslara sədrlik edir və gündəliyi təsdiq edir;
- Komissiyanın qərar və tövsiyələrinin rəsmiləşdirilməsini və Elmi Şuraya təqdim olunmasını təmin edir;
- Komissiyanı universitet daxilində və zəruri hallarda xarici qurumlar qarşısında təmsil edir.

## 7. KOMİSSİYANIN İCLASLARI VƏ QƏRARLARI

7.1. Komissiyanın iclasları görüləcək işlərin həcminə uyğun olaraq sədr tərəfindən müəyyən edilən tarixlərdə, lakin ildə azı dörd dəfə keçirilir.

7.2. Komissiyanın iclasları üzvlərin azı üçdə iki hissəsinin iştirakı ilə səlahiyyətli hesab olunur.

7.3. Qərarlar iclasda iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda sədrin səsi həlledici hesab olunur.

7.4. İclaslara dəvət olunmuş ekspert və mütəxəssislər səsvermə hüququna malik deyillər və məxfilik tələblərinə riayət etməlidirlər.

7.5. Qərarlar tövsiyə xarakteri daşıyır və protokollaşdırılır.

## 8. KOMİSSİYANIN HÜQUQLARI

Komissiya aşağıdakı hüquqlara malikdir:

**8.1.** Keyfiyyət təminatı ilə bağlı zəruri məlumat və hesabatları SKT şöbəsindən rəsmi qaydada əldə etmək;

**8.2.** Zəruri hallarda iclaslara daxili və xarici ekspertləri dəvət etmək;

**8.3.** Təhsilin, tədqiqatın və idarəetmənin keyfiyyətinin yüksəldilməsi ilə bağlı tövsiyələr vermək.

## 9. YEKUN MÜDDƏALAR

**9.1.** Bu Əsasnamə universitetin Elmi Şurasının qərarı ilə təsdiq edildiyi tarixdən qüvvəyə minir.

**9.2.** Əsasnaməyə dəyişiklik və əlavələr Elmi Şuranın qərarı əsasında həyata keçirilir.